**Bakı Ali Neft Məktəbinin**
**______________nömrəli**
**“____”**
**__________tarixli**
**əmri ilə təsdiq**
**olunmuşdur**

**BANM-in yüksək göstəricilərə malik məzunlarının qiymətləndirilməsi üzrə**

# TƏLİMAT

1. Bakı Ali Neft Məktəbində (bundan sonra “Ali Məktəb”) tələbələrin təhsil aldığı müddətdə həvəsləndirilməsi və yüksək göstəricilərə malik tələbələrin qiymətləndirilməsi məqsədilə hər il məzun olan tələbələr arasından bakalavriat və magistratura səviyyələri üzrə bütün ixtisasların birinciləri məzun günündə Ali Məktəbin rektoru tərəfindən xüsusi plaketlə təltif olunur.

2. Həmçinin Ali Məktəbin ən müvəffəqiyyətli tələbələrinin adlarının əbədiləşdirilməsi məqsədilə hər il məzun günündə bakalavriat səviyyəsi üzrə ən yüksək göstəricilərə malik tələbə Ali Məktəbin məzun kötüyünə öz adını həkk edir.

3. Kötüyə adını həkk edən tələbə:

   3.1. Yalnız bakalavriat səviyyəsinin məzunları arasından seçilir;

   3.2. Məzun olan tələbələr arasında ən yüksək ümumi orta müvəffəqiyyət göstəricisinə malik olmalıdır;

4. Kötük məzun günündə səhnəyə gətirilir və tələbə hər kəsin gözü qarşısında, təntənəli şəkildə adını kötüyə həkk edir.

5. Kötük il ərzində Ali Məktəbin kampusunun girişində xüsusi guşədə sərgilənir.